BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2007

# CƏZANI YÜNGÜLLƏŞDİRƏN HALLARIN MƏSULİYYƏTİN DİFERENSİASİYASINDA İŞTİRAKI

**E.İ.MURADOV**
***Bakı Dövlət Universiteti***

*Cəzanı yüngülləşdirən hallar əsasən məsuliyyətin sanksiya çərçivəsində konkretləşdirilməsinə xidmət edirlər. Burada məsuliyyətə müəyyən təsir istiqamətinə malik olan hallar mövcuddur. Belə hallar iki cür cinayət məsuliyyətinə təsir edir: birinci, Azərbaycan Respublikası CM-in 59-cu maddəsində nəzərdə tutulan hallar 58-ci maddənin göstərişinə görə sanksiya hüdudunda cəza fərdiləşdirilərkən seçilən cəzanın növünə və həddinə təsir göstərir; ikinci, cəzanı yüngülləşdirən hallar Məcəllənin Xüsusi hissəsində əsas tərkiblərə, yaxud da məsuliyyəti yüngülləşdirən halı olan tərkiblərə cəzanı yüngülləşdirən əlamət kimi daxil ola bilər. İkinci növ hallar spesifik hüquqi təbiətə malikdir. Bu spesifika ondan ibarətdir ki, belə əməllərin ictimai təhlükəlilik dərəcəsinin azaldılması birbaşa CM-nin Xüsusi hissəsinin dispozisiyasında göstərilir.*

Cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi həm əməlin tövsifi zamanı, həm də digər diferensiasiyalı institutlar tərəfindən nəzərə alınır (yəni, bu hal mümkün cəzanın sərhədlərini dəyişdirmək imkanına malikdir). Cəzanı yüngülləşdirən hallar əsasən məsuliyyətin bu sərhədlərdə konkretləşdirilməsinə xidmət edir. Burada məsuliyyətə müəyyən təsir istiqamətinə malik olan hallar mövcuddur. Bəzi halların adları konkret cinayət tərkiblərinin tövsifi əlamətlərinə uyğundur, bu da onların təbiətlərinin yaxın olmasını göstərir. Amma müəyyən hallar, ancaq cəzanı yüngülləşdirən hallar institutunda göstərilir, lakin digər institutlarda ifadə olunmur. Onların bir hissəsi təqsirkarın şəxsiyyəti ilə əlaqədardır və humanizm prinsipinin reallaşmasına xidmət edir, digər hissəsi cinayətin törədilməsi hallarını nəzərə almağa kömək edir, yəni onlar cinayət tərkibinin məcburi əlamətini təşkil etmirlər, başqa bir hissəsi isə təqsirkarın cinayətdən sonrakı davranışını xarakterizə edir. Cinayət hüququnda cəzanı yüngülləşdirən halların iki növü mövcuddur:

1) cinayət qanununun Xüsusi hissəsində olan cinayət tərkib xüsusiyyətlərinə aid olan və tövsifə təsir göstərən hallar. Buna görə də ədəbiyyatda çox vaxt onları tövsifi hallar kimi adlandırırlar. Buraya cinayət tərkibinin əlamətləri ilə bağlı olan hallar daxildir;

2) yüngülləşdirici sözünün müstəqim mənasında cinayət qanununun Ümumi hissəsində göstərilən, sanksiya çərçivəsində düzgün cəza seçiminə kömək edən hallar. Buraya cəzanın fərdiləşdirilməsi vasitəsi olan hallar daxildir.

Cinayət hüquq elmində cinayət tərkiblərinin müxtəlif əlamətlər üzrə təsnifi aparılır. Cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə görə

qurulan tərkiblərdən biri məsuliyyəti yüngülləşdirən halı nəzərdə tutan tərkiblərdir.

Cinayət tərkiblərində yüngülləşdirici hallar iki vəzifəni yerinə yetirirlər:

1. Onlar cinayət tərkibinin zəruri əlamətləri kimi konkret cinayətdə cinayət subyektini təqsirli bilmək üçün əhəmiyyətə malikdirlər. Bu hallar məhz bu cinayət üçün xarakterik olan, törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsini azaldırlar. Belə tərkib artıq yüngülləşdirici hallarda cinayət tərkibi adlandırılır. Ananın yeni doğduğu uşağı qəsdən öldürməsini (mad. 121), güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürməni (mad. 122), zəruri müdafiə həddini aşmaqla adam öldürməni (mad. 123) nəzərdə tutan tərkiblər – məsuliyyəti yüngülləşdirən halı olan tərkiblərdir. Bu tərkiblərin hər birinin əsasında qəsdən adam öldürmənin tərkib əlamətləri (mad. 120.1) – əsas tərkib durur. Qanunverici orqan burada cinayətin subyektinin xüsusiyyətlərini - təqsirkarın ana olmasını), əməlin güclü ruhi həyəcan vəziyyətində törədildiyini, əməlin zəruri müdafiə həddini aşmaqla edilməsini səciyyələndirən əlamətləri əsas tərkibə daxil etməklə belə cinayət tərkibləri yaratmağa nail olmuşdur. Qətl cinayətləri göstərilən hallarla bağlı olduqda onların sosial təlükəliliyi xeyli azalır.

Məsələn, qanunvericilik, güclü ruhi həyəcan vəziyyətində adam öldürmənin törədilməsini xeyli dərəcədə zərərçəkənin «təqsiri» ilə əlaqələndirir və belə cinayət tərkibləri yaratmaqla məsuliyyəti yüngülləşdirir.

2. Göstərilən cinayət tərkiblərində yüngülləşdirici hallar cinayət əməlinin tövsifinə təsir göstərir. Yüngülləşdirici hallar burada cəzanın həcminə təsir göstərərək onun azaldılması roluna malikdir.

Qanunla müəyyən olunan sərhədlərdə hər bir cinayət tərkibi cəzanın növünü və həcmini göstərir. Yəni sanksiya çərçivəsində cinayət subyektinə fərdi cəza təyin olunur. Fərdi cəzanın təyini zamanı CM-in 59-cu maddəsində göstərilən cəzanı yüngülləşdirən hallar böyük əhəmiyyətə malikdir.

Bəzi kriminalist alimlər hesab edirlər ki, tərkib əlaməti kimi nəzərə alınan cəzanı yüngülləşdirən hallar gələcəkdə cəzanın həcminə təsir göstərə bilməz. Qanunverici orqan yuxarıda göstərilən cinayət tərkiblərində yeni doğduğu uşağı qətlə yetirən qadının (ananın) müxtəlif xüsusiyyətlərini (mad. 121), təqsirkarın emosional (güclü ruhi həyəcan) vəziyyətini və zərərçəkmiş şəxsin zorakılığı, ağır təhqiri, sair qanunsuz və ya əxlaqsız hərəkətlərini (mad. 122), zəruri müdafiə həddinin və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddin aşılmasını (mad. 123), cinayətin zərərçəkmiş şəxsin xahişi ilə törədilməsini, habelə zərərçəkmiş şəxsin ağır və sağalmaz xəstə olmasını (evtanaziya – mad. 135) yüngülləşdirici hal kimi əsas tərkibə daxil etmişdir (1, s. 280 – 287; 301-303; 310-312). Buna görə də qanunverici orqan göstərilən cinayət tərkiblərini cəzanı yüngülləşdirən hallarda qəsdən adam öldürmənin növləri kimi müəyyən etmişdir. Tərkib əlaməti olan yüngülləşdirici hallar əməlin tövsifinə təsir göstərdiyindən sanksiya çərçivəsində cəzanın həcmini azaldırlar.

N.S.Leykina hesab edir ki, cinayət tərkibinin əlamətlərinin konkret məzmunu yüngülləşdirici hallar kimi yox, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsini xarakterizə edən kimi nəzərə alınırlar (8,

s. 106, 107).

A.N.Traynin cinayət tərkibi haqqında öz işində cəza təyini məsələsinə keçərək qeyd edir ki, «bu tipli cəzanın tətbiqi üçün cinayət tərkibinə element kimi daxil olan əlamətlər, fərdi cəzanın tətbiqi üçün əsas tərkibə daxil edilməyən əlamətlər kimi çıxış edir. Hakimin ixtiyarında fərdi cəzanın təyini üçün kriteriyalar qismində tərkibə daxil edilməyən halların və əlamətlərin geniş dairəsi qalır. Buraya qanunda göstərilən və göstərilməyən cəzanı yüngülləşdirən hallar daxil edilir. Bu hallar içərisindən məhkəmə cəzanın fərdiləşdirilməsi üçün real əsasları müəyyən edir» (11, s. 324-327; 3, s. 23-24; 12, s. 308).

Fikrimizcə, yuxarıda göstərilən müddəalar cəza təyini zamanı yüngülləşdirici halların təbiətini, xarakterini, təsirini tam, düzgün əks etdirmir. Ona görə də göstərilən möqe ilə tam razılaşmaq olmaz.

Cəzanın növünü və həcmini müəyyən edərək məhkəmə ilk növbədə törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini birbaşa xarakterizə edən yüngülləşdirici halları nəzərə alır (ziyanın həcmi, cinayətin törədilməsi metodu, cinayətkarın təqsir dərəcəsi, qəsdin forması, motiv və məqsədin məzmunu). Bu yüngülləşdirici hallar cinayət tərkibinin zəruri əlamətləri ola bilər və onda onlar birbaşa şəxsi konkret yüngülləşdirilmiş cinayət tərkibində təqsirli bilmək üçün əhəmiyyətə malikdirlər.

Göstərilən hallar məhkəməyə təqsirləndirilənə fərdiləşdirilmiş cəzanı təyin etmək üçün hüdudları müəyyən edir.

Cəzanı yüngülləşdirən hallar cinayət tərkibinin əlamətləri ilə sıx əlaqəlidir. Ona görə də cəzanı yüngülləşdirən halların cinayət tərkibinin əlamətləri kimi çıxış etməsi cinayət subyektinin və əməlin ictimai təhlükəlilik dərəcəsini azaldır. Cinayət tərkibində göstərilən cəzanı yüngülləşdirən hallar fərdi cəza seçimində sanksiya çərçivəsində cəzanın yüngülləşdirilməsinə təsir göstərirlər.

Bununla əlaqədar Q.A.Kriqerlə razılaşmamaq olmaz. O, hesab edir ki, «qanuna və cinayət hüququnun ümumi prinsiplərinə tam müvafiq olaraq məhkəmə təcrübəsi sanksiya çərçivəsində cəzanın həcminin müəyyənləşdirilməsində ümumi formada qanunverici tərəfindən baxılan cinayət tərkiblərinə onun elementləri kimi daxil edilən hallara mühüm əhəmiyyət verir. Bu hallar nəinki cinayətin tövsifi zamanı, hətta cəzanın təyini zamanı böyük rol oynayırlar». Q.A.Kriqer hesab edir ki, baxılan hallardan hər biri əks olunma dərəcəsindən asılı olaraq bu hal təqsirləndirilənin məsuliyyətini yüngülləşdirə bilər (4, s. 74; 10, s. 80, 100; 7, s. 196). Beləliklə, CM-in Ümumi hissəsinin cəzanı yüngülləşdirən halların nəzərə alınmasını tənzimləyən göstərişləri həm sanksiya çərçivəsində cəzanın konkret növünün və müddətinin seçimi haqqında məsələnin həllində, həm də cinayətin və cinayət subyektinin şəxsiyyətinin ictimai təhlükəlilik dərəcəsini xarakterizə edən yüngülləşdirici halların seçimində mühüm rol oynayırlar. Cinayət tərkibi elementi qismində nəzərə alınan cəzanı yüngülləşdirən hallar da sanksiya çərçivəsində cəza təyini zamanı mühüm əhəmiyyət kəsb edir.

Cinayət hüququnda cəzanı yüngülləşdirən halların ikinci növünün daha da təkmilləşdirilmiş siyahısı 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası CM-in 59-cu maddəsində öz təsbitini tapmışdır.

Bəzi müəlliflər qeyd edirlər ki, yüngülləşdirici hallar məsuliyyətin

fərdiləşdirilməsinə xidmət edirlər, buna görə də onları diferensiasiya halları kimi tanımaq olmaz (9, s. 47). Bu mövqe düzgün hesab edilmir, çünki həmin müəlliflər məsuliyyətin diferensiasiyasını müəyyən edərək və onun fərdiləşdirilmədən fərqləndirilməsini göstərib qeyd edirlər ki, diferensiasiya – qanunvericinin xüsusi səlahiyyətidir, yəni cinayət qanununda cinayətin və cinayətkarın şəxsiyyətinin ictimai təhlükəliliyinin və xarakterinin dəyişməsindən asılı olaraq məsuliyyətin dəyişməsini müəyyən edir (9, s. 52). Cəzanı yüngülləşdirən hallar institutu cinayət qanununda öz əksini tapıb və qanunda bu halların bəzilərinin məsuliyyətə təsir dərəcəsi müəyyən olunur (mad. 60).

Yüngülləşdirici hallar CM-in 58.3-cü maddəsində göstərilmiş digər hallardan fərqlənirlər və özünəməxsus xüsusiyyətlərə malikdirlər. Bu hallardan qanunda göstərilənləri məcburi xarakter daşıyır (mad. 59) və məsuliyyətə müəyyən təsir istiqamətinə malikdirlər (5, s. 18).

Qüvvədə olan cinayət qanunvericiliyi cəzanı yüngülləşdirən hallar olduqda cəzanın təyin edilməsi qaydasını müəyyən etmişdir. Belə bir qayda bu institutun əsl mahiyyətini və statusunu müəyyən etməyə kömək edir.

CM-in 60-cı maddəsinə əsasən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına kömək etdikdə, həmçinin cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərdikdə, cinayət nəticəsində dəymiş maddi və mənəvi zərəri könüllü olaraq ödədikdə və ya aradan qaldırdıqda, zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd etdikdə, zərərçəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş digər hərəkətlər etdikdə və əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, təyin olunan cəzanın müddəti və ya həcmi CM-in Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz.

CM-in 59.1.9 və 59.1.10-cu maddələrində nəzərdə tutulmuş cəzanı yüngülləşdirən halları müəyyən etdikdə məhkəmə daha ciddi cəza növünün son həddinin dörddə üçündən də az müddətə, lakin CM-in Xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyası həddində cəza təyin edə bilər. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» 2003-cü il 25 iyun tarixli 4 saylı qərarının 6-cı bəndində deyilir ki, CM-in 59.1.9 və 59.1.10-cu maddəsinin tətbiqi ilə əlaqədar təyin olunacaq cəza konkret maddədə müəyyən edilən cəzanın aşağı həddindən də aşağı olduğu hallarda CM-in 62-ci maddəsinə istinad etməyə ehtiyac yoxdur.

Hesab edirik ki, CM-in 59.1.9 və 59.1.10-cu maddələrinin tətbiq edilməsi ilə cəzanın hüdudlarının dəyişdirilməsi haqqında qərar məsuliyyətə təsir göstərən ayrı-ayrı halların xarakterinin və mahiyyətinin müxtəlifliyini əks etdirir. CM-in 59.1.9 və 59.1.10-cu maddələri cəzanın yuxarı həddinin məhdudiyyətini müəyyən edir.

CM-in 60-cı maddəsinin tətbiq edilməsi üçün aşağıdakı şərtlər ödənilməlidir:

cinayət törətmiş şəxsin əməlində CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallardan, heç olmazsa, biri olmalıdır;

cinayət törətmiş şəxsin əməlində CM-in 61-ci maddəsində

sadalanan cəzanı ağırlaşdıran hallardan heç biri olmamalıdır;

yuxarıda sadalanan şərtlər olduqda cinayət törətmiş şəxsə təyin olunan cəzanın müddəti və ya həcmi Xüsusi hissənin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq olmamalıdır.

Cinayət qanunvericiliyi CM-in 60-cı maddəsinin tətbiqini törədilən cinayətin kateqoriyası ilə məhdudlaşdırmır. Törədilmiş cinayət hətta ağır və xüsusilə ağır cinayətlər kateqoriyasına aid olsa da, əgər şəxsin əməlində yüngülləşdirici hallardan ən azı biri vardırsa və cəzanı ağırlaşdıran hallar yoxdursa, məhkəmə cinayətin nəzərdə tutulduğu müvafiq maddənin sanksiyasında göstərilmiş daha ciddi cəza növünün son həddinin dörddə üçündən çox olmamaqla cəza təyin etmək hüqüquna malikdir.

CM-in Xüsusi hissəsinin müvafiq maddəsində göstərilən daha ciddi cəza növünün son həddinin dörddə üçündən çox cəza təyin edilə bilməməsi haqqında 60-cı maddənin göstərişi üç istisna hal ilə xarakterizə olunur (1, s. 138):

Birinci istisna hal ondan ibarətdir ki, CM-in 60-cı maddəsinin cəza təyin etməyə dair müddəası müddətsiz cəza növlərindən ömürlük azadlıqdan məhrum etmə cəzasına şamil oluna bilməz.

İkinci istisna hal CM-in 60-cı maddəsinin yetkinlik yaşına çatmayan şəxslər barəsində tətbiqi ilə əlaqədardır. Yetkinlik yaşına çatmayanlar barəsində CM-in 60-cı maddəsinin tətbiqi zamanı yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzanın xüsusiyyətlərini nizama salan CM-in 85-ci maddəsinin müddəaları nəzərə alınmalıdır.

CM-in 85-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şəxslər cinayət törətdikdə onlara cərimə, ictimai işlər, islah işləri və müəyyən müddətə azadlıqdan məhrum etmə cəzalarından hər hansı biri təyin oluna bilər. Həmin maddənin tələblərinə görə, yetkinlik yaşına çatmayan şəxslər barəsində tətbiq olunan cərimə cəzasının miqdarı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş şərti maliyyə vahidi məbləğinin otuz mislindən üç yüz mislinədək, ictimai işlər qırx saatdan yüz altmış saatadək müddətə, islah işləri iki aydan bir ilədək müddətə, azadlıqdan məhrum etmə isə on ildən çox olmayan müddətə təyin edilə bilər.

Deməli, yetkinlik yaşına çatmayan şəxs cinayət törətdikdə onlar barəsində təyin edilən cəzanın müddəti CM-in 85.2–85.5-ci maddələrində göstərilən maksimum cəza müddətlərinin (cəzanın həcminin) dörddə üçündən çox ola bilməz. Qeyd olunan tələblər yalnız o halda nəzərə alınır ki, məhkəmə yetkinlik yaşına çatmayan şəxsə törətdiyi cinayətə görə daha ciddi cəza növünü seçmiş olsun.

Hesab edirik ki, CM-in Kommentariyasının bu hissəsində göstərilən istisna hal aradan qaldırılmalıdır. CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallar olduqda və əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, yetkinlik yaşına çatmayan şəxsə təyin olunan cəzanın müddəti və ya həcmi Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz.

Üçüncü istisna CM-in 60 və 63-cü maddələrində nəzərdə tutulan cəza təyin etmənin qaydalarından irəli gəlir. CM-in 63.2 və 63.3-cü

maddələrinin tələblərinə görə cinayətə hazırlığa görə təyin edilən cəzanın müddəti və ya həcmi CM-in Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından, cinayət etməyə cəhdə görə isə dörddə üçündən çox ola biməz.

CM-in 63-cü maddəsinə görə başa çatmayan cinayətə (cinayətə hazırlığa və ya cinayət etməyə cəhdə) görə təyin edilən cəzanın yuxarı həddi CM-in Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulan daha ciddi cəzanın yuxarı həddinin cinayətə hazırlıqda yarısına, cinayət etməyə cəhddə isə dörddə üçünə bərabərdir. CM-in 60-cı maddəsinin şərhində başa çatmayan cinayətə görə cəzanın təyin edilməsi aşağıdakı kimi göstərilir:

«Cinayətə hazırlığa görə, əgər cinayət törətmiş şəxsin əməlində cəzanı ağırlaşdıran hallar yoxdursa və CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallardan hər hansı biri vardırsa, 60-cı maddəni tətbiq etməklə təyin edilən cəzanın müddəti və ya həcmi daha ciddi cəza növünün yuxarı həddinin yarısının dörddə üçündən çox ola bilməz. Eyni halda cinayət etməyə cəhdə görə təyin ediləcək cəzanın müddəti və ya həcmi daha ciddi cəzanın yuxarı həddinin dörddə üçünün dörddə üçündən çox ola bilməz».

Hesab edirik ki, CM-in 60-cı maddəsində göstərilən əsaslar olduqda başa çatmayan cinayətə görə cəza təyin edilərkən bu müddət müvafiq maddənin sanksiyasında göstərilən daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən artıq olmayan müddətlə məhdudlaşmalıdır. Cinayətə hazırlığa görə bu müddət daha ciddi cəzanın yuxarı həddinin dörddə üçünün yarısından, cinayət etməyə cəhdə görə isə dörddə üçünün dörddə üçündən çox ola bilməz. CM-in 60-cı maddəsinin təhlil olunan şərhi maddənin mətninə uyğun gəlmir və Məcəllənin 63-cü maddəsinin yuxarıda göstərilən şərhinə ziddir. CM-in 60-cı maddəsində göstərilən əsaslar olduqda başa çatmayan cinayətə görə cəzanın təyin edilməsi ilə bağlı 63-cü maddənin şərhini düzgün hesab edirik.

Cəzanı yüngülləşdirən hallar olduqda cəzanın təyin edilməsinə dair CM-in 60-cı maddəsində nəzərdə tutulan qayda yalnız konkret cinayətlər barəsində tətbiq olunur. CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən yüngülləşdirici hallardan hər hansı biri olduqda, 60-cı maddədə, göstərilən qayda cinayətlərin məcmuyu qaydasında cəza təyin edilməsi hallarına şamil olunmur.

Qanunverici iştirakçılıqla törədilmiş cinayətin iştirakçısının cinayətin açılmasında aktiv iştirakını müstəsna hal kimi qəbul edir (maddə 62). Qanunverici məhkəməyə belə bir imkanı verərkən bu maddənin tətbiqi əsaslarını daha dəqiq müəyyən etməyib. Analoji hal CM-in 59.1.9-cu maddəsində də nəzərdə tutulmuşdur. CM-in 60-cı maddəsi bu halın olması və ağırlaşdırıcı halın olmaması şərti ilə cəzanın yuxarı həddinin məhdudlaşdırılmasını nəzərdə tutur. L.L.Kruqlikov və A.V.Vasilievski hesab edirlər ki, eyni hal həm yüngülləşdirici, həm də xüsusilə yüngülləşdirici hal kimi çıxış edir. Bu hal yüngülləşdirici hal kimi çıxış etdikdə cəzanın yuxarı həddinin düzəlişi, xüsusilə yüngülləşdirici hal kimi çıxış etdikdə isə cəzanın aşağı həddinin düzəlişi nəzərdə tutulmalıdır (6, s. 148).

Hesab edirik ki, CM-in 59.1.9 və 59.1.10-cu maddələrində göstərilmiş hallar cinayətin, cinayətkarın şəxsiyyətinin ictimai

təhlükəlilik dərəcəsinə, həmçinin cəzanın müddətinə və həcminə təsiri dərəcəsinə görə cəzanı xüsusilə yüngülləşdirən hallar hesab edilirlər. Göstərilmiş bu iki halın cəza təyini zamanı, təyin edilən cəzanın həddinə göstərdiyi təsir formal kriteriya əsasında dəqiqləşdirilmişdir (2, s. 517).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. prof. F.Y.Səməndərovun redaktəsilə. Bakı, «Digesta» nəşriyyatı, 2005.
2. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, 2002.
3. Карпец И.И. Отягчающие и смягчающие обстоятельства в уголовном праве. М., 1959.
4. Кригер Г.А. Индивидуализация наказания по советскому уголовному праву. В кн.: Применение наказания по советскому уголовному праву. М., Изд-во МГУ, 1958.
5. Кругликов Л.Л. Смягчающие и отягчающие обстоятельства в советском уголовном праве. Ярославль, 1997.
6. Кругликов Л.Л., Васильевский А.В. Дифференциация ответственности в уголовном праве. Санкт-Петербург, 2003.
7. Куринов Б.А. Автотранспортные преступления. М., 1970.
8. Лейкина Н.С. Личность преступника и уголовная ответственность. Л., Изд-во ЛГУ, 1968.
9. Лесниевски-Костарева Т.А. Дифференциация уголовной ответственности. М., 1998.
10. Михлин А.С. Последствия преступления. М., 1969.
11. Трайнин А.Н. Состав преступления по советскому уголовному праву. М., 1951.
12. Уголовное право. Часть Общая. М., 1969.


## РОЛЬ СМЯГЧАЮЩИХ НАКАЗАНИЕ ОБСТОЯТЕЛЬСТВ В ДИФФЕРЕНЦИАЦИИ ОТВЕТСТВЕННОСТИ


**Е.И.МУРАДОВ**


### РЕЗЮМЕ


Смягчающие наказание обстоятельства в основном служат для конкретизации ответственности в рамках санкции. Здесь имеются обстоятельства, которые оказывают определенное влияние на уголовную ответственность. Такие обстоятельства влияют на два вида уголовной ответственности: во-первых, обстоятельства предусмотренные статьёй 59, при индивидуализации наказания в соответствии со ст. 58 УК АР оказывают влияния на вид и размер избранного наказания в рамках санкции; во-вторых, смягчающие наказание обстоятельства могут содержаться в Особенной части Уголовного кодекса в его основных составах или в составах содержащих смягчающие ответственность обстоятельства. Обстоятельства второго вида обладают специфической правовой природой. Эта специфика состоит в том, что снижение общественной опасности в такого рода деяниях непосредственно определено в диспозиции Особенной части УК.